**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# M.F.AXUNDOVUN ƏSƏRLƏRİNDƏ ŞƏXSIYYƏTIN SOSIAL-PSIXOLOJI XÜSUSIYYƏTLƏRI

İxtisas: 6114.01 – Sosial psixologiya

Elm sahəsi: Psixologiya

İddiaçı: **Könül Məmməd qızı Haqverdiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya elmləri doktoru, professor
**Ərəstun Təriş oğlu Baxşəliyev**

Rəsmi opponentlər: psixologiya elmləri doktoru, professor
**Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Südabə Novruzəli qızı Hüseynova**

psixologiya üzrə fəlsəfə doktoru
**Reyhan İsgəndər qızı Əhmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: psixologiya üzrə fəlsəfə doktoru
**Müşfiq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: psixologiya elmləri doktoru, professor
**Elnarə İbrahim qızı Şəfiyeva**

...edirəm
BAKI DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ KATİBİ
prof. V.M.SALMANOV
«10» 12 2021 il

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Şəxsiyyətin formalaşmasının sosial-psixoloji problemləri müasir psixologiyanın ən mühüm və aktual problemlərindən biridir. Şəxsiyyət problemi istər ümumi psixologiya, istərsə də sosial psixologiyada xüsusi önəm daşıyır. Qeyd etməliyik ki, şəxsiyyət probleminin elə məqamları vardır ki, onları sosial psixologiya tədqiq edir. Şəxsiyyətin sosializasiyası, onun sosial yönümü, qrup və kollektivlərdə şəxsiyyətin formalaşması, insanların ünsiyyəti və və bir çox digər məsələləri buraya aid etmək olar. Ünsiyyət sosial-psixoloji hadisələrin mənbəyini təşkil edir.

Sosial psixologiyada şəxsiyyət problemini tədqiq edərkən, subyekt-subyekt münasibəti ön plana keçir. İnsanın sosial-psixoloji aləmində onun idraki xüsusiyyətləri, emosional-iradi cəhətləri, fərdi-psixoloji xüsusiyyətləri, kollektivdə, kiçik və orta qruplarda qarşılıqlı münasibətləri "mən"ində cəmləşəndə sosiallaşaraq şəxsiyyətə çevrilir. Odur ki, bəşəriyyətin çoxəsrlik söz sənəti nümunələrinin psixoloji kontekstdə tədqiqi psixologiya elminin aktual problemlərindən birinə çevrilmişdir.

Bu fikir və ideyaların diqqətlə öyrənilməsi, siyasi, ideoloji təlim-tərbiyə baxımından, o cümlədən müasir sosial psixologiyanın yeni ideyalarla zənginləşdirilməsi nöqteyi-nəzərindən də aktuallıq kəsb edir.

Professor Ə.T.Baxşəliyev yazır: *"Mənəvi təlabatlar nə qədər nə qədər maddi təlabatlardan asılı və törəmə olsa da, cəmiyyətin həyatında və tarixi tərəqqidə bunlar çox böyük əhəmiyyət kəsb etmişlər. Müəyyən inkişaf pilləsində müəyyən mənəvi sərvətlərə malik olmayan cəmiyyət təsəvvür etmək çətindir. Nəsillərdən-nəsillərə verilən, tarix boyu milyonlarla adamlara ibrət dərsliyi olan, hazırda elmi psixologiyanın mühüm metodoloji əsaslarını təşkil edən milli mənəvi sərvətləri mənimsəmədən nə elmi psixoloji fikrin inkişaf tarixi haqqında dəqiq təsəvvürə malik olmaq, nə də yetişən gənc nəsildə milli bəşəri, sosial-psixoloji keyfiyyətləri aşılamaq olar".*[1]

[1] Baxşəliyev, Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial psixoloji mahiyyəti / Ə.T.Baxşəliyev, – Bakı: Elm və təhsil, – 2011. – s.5.

Azərbaycan ədəbiyyatı klassikləri içərisində yaradıcılığı qeyd olunan cəhətlərdən ciddi maraq doğuran və dərindən öyrənilməsinə ehtiyac duyulan sənətkarlardan biri də, təkcə Azərbaycanın deyil, bütün Şərq dramaturgiyasının banisi M.F.Axundovdur. Belə tarixi şəxsiyyətlər mənsub olduğu xalqın milli sərvəti olub, onun varlığı sayəsində formalaşmışlar. M.F.Axundov Azərbaycanın XIX əsr mütərəqqi ictimai-siyasi, sosial-psixoloji fikrinin ən görkəmli nümayəndəsidir. Qabaqcil elm və maarif uğrunda yorulmadan mübarizə aparan M.F.Axundov əsərlərində inteqrarif mənəvi, sosial-psixoloji keyfiyyətlərini inandırıcı obrazlar vasitəsilə verməklə Azərbaycan ictimai, sosial-psixoloji fikir tarixində parlaq səhifə açdı.

M.F.Axundov "Hekayəti-Molla İbrahim Xəlil kimyagər", "Hekayəti-Müsyö Jordan həkimi nəbatət və dərviş Məstəli şah caduguni-məşhur", "Sərgüzəşti-vəziri-xani Lənkəran", "Hekayəti-Xirs quldurbasan", "Sərgüzəşti-mərdi-Xəsis" ("Hacı Qara"), "Mürafiə vəkillərinin hekayəti" komediyalarında, "Aldanmış kəvakib" adlı povestində canlı insan şəxsiyyətini yalnız bədii cəhətdən deyil, daha çox sosial-psixoloji aspektdə təhlil etmiş, əsas diqqəti şəxsiyyətin mənəvi psixoloji inkişafının, onun formalaşması və təşəkkülündə təbii, ictimai və fərdi amillərin dialektikasına yönəltmişdir. M.F.Axundov şəxsiyyətin mahiyyətini, onun inkişaf xüsusiyyətlərini təsvir etməklə kifayətlənmir. O, şəxsiyyətin daxili aləminə nüfuz edir, onun xarakterinin, qabiliyyətinin, temperamentinin, iradi keyfiyyətlərinin motivlərini, bu prosesdə onun özünün fəallığını müəyyən edir. M.F.Axundov mütərəqqi, demokratik, maarifçilik ideyalarını, əsl şəxsiyyətin formalaşdırılması fikirlərini irəli sürür və bunları böyük qətiyyət və cəsarətlə müdafiə edirdi. M.F.Axundovun şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri haqqında ideyaları bu gün də gənc nəslin təhsil və tərbiyəsində, əsl vətəndaş kimi yetişməsində öz aktuallığını qoruyub saxlamışdır. Beləliklə, M.F.Axundovun əsərlərində şəxsiyyət problemi ən başlıca problemlərdən biri olmuşdur. Lakin tədqiqat göstərdi ki, M.F.Axundovun ədəbi-bədii irsi filoloji, fəlsəfi, pedaqoji cəhətdən kifayət qədər öyrənilsə də, psixoloji baxımdan kifayət qədər öyrənilməmişdir.

Respublikamızın dövlət müstəqilliyini bərpa etdiyi hazırkı şəraitdə, dünyaya inteqrasiya prosesləri kontekstində milli özünüdərk

problemi yenidən, lakin fərqli məzmunda aktuallaşmışdır. Ümummilli liderimiz Heydər Əliyev xalqın özünü dərk etməsini, öz kökünü xatırlamasını, tarixini öyrənməsini *"müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amil"* kimi dəyərləndirirdi. Milli özünüdərk şəxsiyyətin millətə mənsubluğunu və ümumiyyətlə, özünü millət təmsilçisi kimi dərk edə bilməsi, toplum halinda birləşənlərin milli varlıq kimi xassələrini bilməsi, qoruması və müdafiə etməsidir.

XXI əsrin ikinci onilliyini yaşayırıq. Tam bir əsr əvvəl Azərbaycanımızın şimal ərazisini nəzarətə alaraq, yetmiş ildən artıq bu torpaqda rusların hakimliyindən azad olub müstəqilliyinə qovuşsa da, təəssüf ki, torpağımızın iyirmi faizinə nəzarətimizi yenidən itirdik. Azərbaycanın dilbər guşəsi adlanan Dağlıq Qarabağın əksər hissəsi xəyanət nəticəsində erməni işğalına məruz qalsa da, əslində bu işğalın arxasında böyük dövlətlərin zəngin torpağımıza olan tamahları pərdələnir. Dahi M.F.Axundov əsərlərinin hər birini silsilə şəklində Azərbaycanın müəyyən tarixi dövrlərində üzləşdiyi bəlalara həsr etmişdir. Onun böyüklüyü ondadır ki, dahi şəxsiyyət bu günümüzü görürdü və bizi bu bəlaları törədən səbəblərdən və onlardan qurtuluş yollarını əsərləri ilə xəbərdar edirdi. Bu gün Azərbaycanın yaşadığı hadisələr bir daha M.F.Axundovun uzaqgörənliyini təsdiqləyir və qloballaşmaya gedən yolda azərbaycanlılıq ideologiyasının təbliğində və həyata keçirilməsində, xüsusilə də prezidentimizin gələcəyimizi böyük ümidlərlə etibar etdiyi gənclərin sosial-psixoloji yönəlişliyində əsərlərinin böyük əhəmiyyəti aktuallıq daşıyır. Müstəqillik dövründə şəxsiyyət problemini yeni aspektdə araşdırmaq psixologiyanın ən mühüm və aktual vəzifələrində biridir.

Qərb Şərqi yaxşı tanıyırdı və onun üstünlüyünü qəbul etməyərək, bəhrələndiyinə sahib olmaq niyyəti güdürdü. Azərbaycan Şərqin bir parçası sayıldığından, onun müstəqillik əldə etməsi zəngin torpaqdan Qərbin əllərinin üzülməsi demək idi və bu baxımdan azərbaycanlılıq ideologiyası Qərb üçün təhlükə sayılırdı. Qərb üçün bu ideyanın reallaşdırılması yolverilməz idi. Lakin artıq müstəqillik əldə edildiyimiz bir zamanda bu əsərləri sosial-psixoloji baxımdan yenidən araşdırmaq psixologiya elmi qarşısında vacib vəzifə qoyur.

Bütün bunları nəzərə alaraq M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji tədqiqi problemini psixologiya üzrə fəlsəfə doktoru dissertasiyası mövzusu kimi götürməyi məqsədəmüvafiq saydıq.

**Tədqiqatın obyekti** M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinin qoyuluşu və inikası.

**Tədqiqatın predmeti** M.F.Axundovun əsərlərində şəxsiyyətin inteqral-mənəvi-psixoloji keyfiyyətlərinin sosial-psixoloji təhlili.

**Tədqiqatın məqsəd və vəzifələri.** M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji problemlərinin mühüm və başlıca cəhətlərini sosial-psixoloji aspektdə araşdırmaq, onun mahiyyətini müasir elmi psixologiyanın elmi-nəzəri səviyyəsində mənalandırmaq. Dövlətimizin əzmlə, ilhamla başladığı azərbaycanlılıq ideologiyasının gerçəkləşməsində böyük dəyər və yer verərək, etibar etdiyi gənc nəslin tərbiyəsində M.F.Axundovun əsərlərindəki çox dəyərli məqamları aşkarlamaq və təbliğ etmək.

Dissertasiyada aşağıdakı *vəzifələr* müəyyənləşdirilmişdir:

*-Mövzu ilə bağlı M.F.Axundovun əsərlərini qruplaşdırmaq, konkret ümumiləşdirmələr aparmaq, şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinə aid fikir və mülahizələrini seçib sistemləşdirmək.*

*-M.F.Axundovun əsərlərini psixoloji təhlil yolu ilə insan konsepsiyası, şəxsiyyətin mənəvi psixoloji məzmunu, insanın bir şəxsiyyət kimi formalaşması xüsusiyyətləri barədə dahi mütəfəkkirin görüşlərini əsasən şərh etmək.*

*-Ayrı-ayrı surətlərin ümumiləşdirilərək, təhlili vasitəsi ilə M.F.Axundovun şəxsiyyətin mənəvi-psixoloji keyfiyyətləri, mahiyyəti haqqında fikirləri üzə çıxarmaq və onları gənc nəslin istifadəsinə vermək.*

*-M.F.Axundovun əsərlərində şəxsiyyətin hissi və məntiqi idrak prosesləri, iradəsi, temperament və xarakteri, qabiliyyətləri, xüsusi ilə şəxsiyyətin psixoloji xüsusiyyətləri haqqında baxışlarını aydınlaşdırmaq.*

**Tədqiqat metodları.** Tədqiqat metodları dedikdə, həmin elmin əsas problemlərini tədqiq etmək üçün istifadə etdiyi yol və vasitələr nəzərdə tutulur. Tədqiqatda aşağıdakı elmi metodlardan istifadə olunub:

*Empirik tədqiqat metodları:* müşahidəetmə; müqayisə; material modelləşdirmə;

*Nəzəri tədqiqat metodları:* abstraktlaşdırma; ideallaşdırma; formallaşdırma; müqayisəli təhlil metodu; induktiv və deduktiv metodlar; nəzəri (əqli) modelləşdirmə.

Tədqiqat zamanı M.F.Axundovun əsərlərinın təhlilinə geniş yer ayrılmış, eyni zamanda bizdən əvvəl bu əsərlərin təhlilini aparmış görkəmli şəxslərin əsərlərindən, həmçinin arxiv materiallarından, xüsusilə müəllifin şəxsi arxivindəki materiallardan istifadə olunaraq, mövzumuzla bağlı təhlillər aparılmışdır.

Dissertasiyanın mövzusu şəxsiyyət probleminə həsr edildiyindən, şəxsiyyətə dair bütün nəzəriyyələrə əsaslana bilərik. Lakin dissertasiyanın həcmini nəzərə alaraq, bunların bəzilərinə geniş yer verilmişdir: klassik, klinik, eksperimental, humanistik və s. Dissertasiyada Azərbaycan və yaxın və uzaq xarici ölkə psixoloqlarının da elmi nəzəri müddəalarına istinad edilmişdir: O.M.Andreyevanın, Z.Freydin, K.Yunqun, E.Frommun, R.Meyyin, Q.Olportun, akademik Ş.A.Amonaşvilinin, Amerikalı məşhur psixoloq və psixoterapevt Orison Suet Mardenin, Amerika psixoloqu Milton Rokiçin, Fransa psixoloqu Qustav Le Bonun, Azərbaycan psixoloqları M.C.Məhərrəmovun, S.İ.Seyidovun, Ə.T.Baxşəliyevin, Ə.S.Bayramovun, M.V.Vəliyevin, E.A.Piriyevanın və s.

Adları sadalanan istifadə etdiyimiz metodlar, həmçinin tədqiqatın metodologiyası haqqında dissertasiyamızın birinci fəslinin 4.cu bəndində geniş məlumat verilmişdir.

Əldə olunmuş materialların kəmiyyət və keyfiyyət təhlilindən istifadə olunmuşdur. ADPU və ADU universitetləri tələbələrindən eksperimentimizdə iştirak edən tələbələrin ümumi sayı 333 nəfəri təşkil edir. Nəticə və təkliflər 3-cu fəslin 4-cu bəndində əks olunub.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

-Milli dramaturgiyanın banisi kimi tanınan filosof M.F.Axundov, təkcə XIX əsrin deyil, öz fəlsəfi fikirləri ilə bütün dövrlər üçün görkəmli dramaturq, maarifçi, humanist, multikultural və tolerant dəyərlərə malik olan milli olduğu qədər də bəşəri bir şəxsiyyətdir. Zənnimizcə, M.F.Axundovun şəxsiyyətin mənəvi, sosial-psixoloji keyfiyyətləri haqqında irəli sürdüyü ideyalar öz

dövrü üçün, bu gün üçün və sabah üçün də aktual olub və həmişə də öz aktuallığını itirməyəcəkdir.

-M.F.Axundov əsərlərində dövlətin təməli sayılan ailədə Azərbaycan qadınının milli-mənəvi dəyərlərinin qoruyucusu kimi əvəzsiz roluni göstərməklə yanaşı, onların da savadlanması yolunda mübarizə aparan bir şəxsiyyətdir.

-Polkovnik M.F.Axundovun bir dramaturq kimi yaratdığı əsərlər, nəinki XIX əsrin, eləcə də ümumiyyətlə Azərbaycan tarixi faktlarina əsaslanaraq, silsilə xarakterlidir.

-M.F.Axundov, yaradıcılığında şəxsiyyəti yalnız bədii cəhətdən deyil, daha cox kollektiv və qruplarda göstərdikləri sosial-psixoloji vəziyyətləri baxımından təhlil edir. Şəxsiyyətin sosial qruplardakı qarşılıqlı münasibətlərini həmin ictimai mühitin məhsulu kimi şərh edir, onların tipik xarakter əlamətlərini inandırıcı faktlarla göstərir.

-M.F.Axundov yaradıcılığında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinin tədqiqi Azərbaycan xalqının dünya elm və mədəniyyət tarixinə, böyük tarixi şəxsiyyətlər bəxş etməsi baxımından əhəmiyyətlidir. Siyasi, ideoloji əhəmiyyət kəsb edən bu tipli tədqiqatlar, gənclərimizdə vətənpərvərlik hissini inkişaf etdirir, onlarda millətinə, elinə, bütövlükdə insanlara humanist münasibətlər yaradır, onları asosial davranışdan uzaqlaşdırır, kamil şəxsiyyət zirvəsinə ucalmaq yoluna istiqamətləndirir.

-Şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri cəmiyyətin və dövlətin idarə olunmasında M.F.Axundova görə, həlledici əhəmiyyətli rola malikdir.

-Şəxsiyyətin özünüdərketməsi, M.F.Axundova görə, dünyada sülhün bərqərar olmasına vasitədir.

**Tədqiqatın elmi yeniliyi.** M.F.Axundovun yaradıcılığında fəlsəfi, psixoloji, pedaqoji ideyalara aid bir sıra əsərlər yazılmışdır. Təbii ki, bu əsərlər içərisində fəlsəfi, filoloji baxımdan əsərlər çoxluq təşkil edir. bir neçə kiçik həcmli psixoloji məqalələr (A.O.Makovelski, M.İ.Məhərrəmov, F.Ə. İbrahimbəyov, C.A.Təhmasib, Ə.S.Bayramov, M.V.Vəliyev, N.T.Rzayeva) müstəsna olmaqla, təəssüf ki, bu sahədə sistemli şəkildə yazılmış monoqrafiya, namizədlik, doktorluq dissertasiyalarına rast gəlinmir. Bu baxımdan bu dissertasiya yeni bir iş kimi qiymətləndirilə bilər.

SSRİ dövründə Qərb alimlərinin, o cümlədən psixoloqların, sosioloqlarının, filosoflarının bir çoxu Sovet dövlətinin ideoloji düşməni elan edilmiş, bu səbəbdən onlar barədə müsbət fikir demək, fikirlərinə istinad etmək ciddi yasaq idi. M.F.Axundov və digər mütəfəkküilərimizin əsərlərində Marksizm elementləri kifayət qədər araşdırılsa da, Sovet dönəmində "burjua alimi" damğası vurulmuş tanınmış Qərb mütəfəkkirləri ilə müqayisəsi aparılmayıb, müstəsna hallarda isə, tənqidi xarakter daşıyıb. M.Məhərrəmov: *"...M.F.Axundov Marksa qədərki bütün materialistlər kimi, ictimai hadisələrin izahında idealist mövqedə durmasina baxmayaraq, təbiət hadisələrinə mübariz materialist kimi yanaşan dövrünün mütərəqqi simalarından biri idi... O dövr üçün mürtəce burjua alimlərinin qabiliyyət və talantın irs olduğunu iddia etmələri elmə zidd olduğu kimi, yeni doğulan uşağın "ruhu" ingilis filosofu Con Lokun soylədiyi kimi üzərində yaza biləcəyimiz "təmiz lövhə", yaxud XVIII əsr fransız materialistlərinin zənn etdikləri kimi, üzərində hər cür formanı nəqş və yenidən nəqş edə biləcəyimiz mum da deyildir"*[2] və ya *"Maarifçilik – gənc burjuaziyanın ideologiyasını ifadə etməklə, feodal-silk ənənələrinə və dini xurafata qarşı insanı və insan zəkasının təntənəsi, yer üzündə fərəh həyat sürmək hüququ uğrunda ümummədəni hərəkatının tərkib hissəsi olan estetik fikir cərəyanıdır. Maarifçilik ideoloqları feodal mütləqiyyət qaydalarını və onların ideoloji əsaslarını, o cümlədən dini kəskin tənqid edir, zəka səltənətini təbliğ edirdilər".*[3]

Eyni ilə yuxarıda deyilən səbəbdən Qərbdə geniş yayılmış, lakin Sovet dövlətində qəbul edilməyən bir sıra nəzəriyyələrin elementlərinin onlarda hələ 100 il əvvəl Azərbaycan maarifçilərinin əsərlərində olması faktı da məlum səbəblərdən tədqiq olunmayıb. Biz, ilk dəfə M.F.Axundovun yaradıcılığında fəlsəfi, psixoloji, pedaqoji ideyalarını sosial-psixoloji aspektdə sistemli şəkildə araşdırmışıq və rus alimləri ilə yanaşı Qərb alimlərinə də istinad etmişik.

---

[2] Məhərrəmov, M. M.F.Axundov və psixologiya elmi: M.F.Axundovun anadan olmasının 150 illiyi qarşısında // Ədəbiyyat və incəsənət. – 1962, 6 oktyabr. №39, s.3
[3] Ağayev, Ə. Qısa estetika lüğəti / Ə.Ağayev. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. – 1970. – 464 s.

Bu və ya bu qəbildən olan əksər tədqiqatlar ona şahidlik edir ki, Azərbaycan xalqı yeraltı və yerüstü, maddi-mənəvi sərvətləri ilə fəxr etdiyi kimi, zəngin mənəviyyata, əsl vətəndaş mövqeyinə malik olan insan kapitalı ilə də fəxr edir və fəxr etməyə də mənəvi haqqı var.

M.F.Axundovun əsərlərindəki əsas ideya şəxsiyyətin özünüdərketməsi, özünü düzgün qiymətləndirməsi, özünə nəzarət etmək, kamillik zirvəsinə yüksəlmək, vətənpərvər olaraq, dəyərlərindən bəhrələnərək dünyaya inteqrasiya edərək, bəşəri birliyə çatmaqla Allaha tapınmaqdır. Bu isə, insanın şəxsiyyət kimi formalaşmasına, onda məzmun və keyfiyyətlərin inkişafına təsir göstərən vasitələrdəndir.

Bu əsərlər orta nəslə imkan verir ki, gələcək nəsilləri tarixdən düzgün nəticə çıxararaq, səhvləri təkrarlamadan gələcəyə yönəltsin. Əsərlərin özəlliyi ondadır ki, burada Azərbaycanımız, onun təbiəti, mədəniyyəti, tarixi, siyasəti, elmi və s. füsunkarlıqla əsasən vəsv olunub. Burada müəllif tərəfindən bizə həm səhvlərimiz və ondan törəyən və törəyəcək bəlalar və onların təkrarlanması səbəbi göstərilir, eləcə də onlardan qurtuluş yolu bizə tövsiyə edilir. M.F.Axundov bir xalqin xoşbəxtliyini ümümbəşəri dostluqda, sülhdə, silah gücünə hakimiyyət dəyişikliyində deyil, beyinlərdə inqilabda, insanların super eqoya, yəni şüurdan yüksək şüura çatmasında görürdü. Şəxsiyyətin sosializasiyası prosesində onun psixoloji xüsusiyyətlərinin rolu, eləcə də cəmiyyətin bu psixoloji proseslərə təsiri psixoloji aspekdən böyük ustalıqla açıqlanmışdır. Odur ki, bu əsərlərin, qnoseoloji, psixoloji aspekdə tətqiq edilməsi, onun əsl mahiyyətinin aşkarlanmasına və ondan cəmiyyətimizin faydalanmasına böyük köməklik göstərəcək.

M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji mahiyyəti, təşəkkülü və formalaşmasının qanunauyğunluqları, şəxsiyyətin formalaşmasında irsiyyət və sosial amillərin rolu və digər məsələlər bədii obrazlar vasitəsilə təhlil olunur. M.F.Axundovun əsərlərində həmçinin şəxsiyyətin xarakterinin, temperamentinin və qabiliyyətlərinin cəmiyyətdə necə formalaşması, maraq və meylləri bədii obrazlar vasitəsilə açıqlanır.

Akademik Ramiz Mehdiyev yazır: *"Baxışların dəyişməsi, yeni dəyər oriyentlərinin yaranması bizim "qərbləşmə" adlandırdığımız, dəgərlərinin isə, ənənəvi cəmiyyətlərə universal dəyərlər gətirilməsi adlandırdığı prosesə kömək edir. Bəziləri Qərb dəyərlərinin təsirini məhvedici, digərləri müsbət amil hesab edir"*[4]

Azərbaycanın müstəqillik əldə etdiyi, eləcə də qloballaşma prosesinə qatıldığı bir dövrdə milli şüurun oyanması olduqca vacibdir. Bu baxımdan milli özünüdərk, öz milli dəyərlərinə önəm verərək onları təbliğ etməklə onu qorumaq, eləcə də milli dirçəliş, milli inkişaf naminə yenilikləri və Avropa dəyərlərindən bizə uyğun olanları öyrənmək və tətbiq etmək mühüm əhəmiyyətə malikdir. Qərbə inteqrasiya prosesində düzgün mövqe tutmaq üçün M.F.Axundovun əsərləri əvəzsiz mənbədir. Şərq-Qərb mədəniyyətinin müqayisəsində Sərqin bütün üstünlükləri, istənilən inkişafla ayaqlaşma bacarığı M.F.Axundovun əsərlərində öz təsdiqini tapmışdır. Bu əsərlər bu günümüzdə avropalaşmağa meylli insanlara layiqli cavab ola bilər.

Şüurun onu dəyişdirməsinə qadir olmadığını da təsdiqləyirik. Çünki Qustav Le Bon da bunu dərk edirdi ki, şüur bu həddə gücsüzdür. Lakin yeni mərhələni açıqlamır. Sadəcə şüurun rolunu kölgədə qoyur. Əslində isə, Freydin şüurun strukturundakı üçüncü mərhələyə şüurdan yüksək şüura qalxmalıdır. Həqiqət və nicat ona görə də tapılmır ki, Şərqdən qaynaqlanan bir mədəniyyət "tisbağa qınından çıxdı, qının bəyənmədi" Azərbaycan el məsəlində deyildiyi kimi, terrorlarla, süni iddihamlarla ona qarşı dayanır və tükənməkliyi Şərq dövlətlərinə zor tətbiq etməklə saxlayır. Çixiş yolu isə, sivil qaydada qloballaşmaq, mədəniyyətləri birləşdirməkdir. Ölkə nə qədər geniş olsa doğanaqdan keçər. Bu da Şərq fəlsəfəsidir. Kökə qayıdış, özünüdərk yoluna çıxışdır ki, Həqiqətə, Mütləq olana tapınmaqdır. Dahi filosof M.F.Axundovun da bu psixoloji və fəlsəfi fikirlərdən çıxış edərək, məqsədi, ümumbəşəri dəyərlərə, bunun üçün isə, ali şüura malik olmağın insanların xoşbəxtliyində yeganə vasitə olduğunu yaradıcılığı vasitəsilə bizə çatdırmaq idi: *"Millətlər ittifaq*

[4] Mehdiyev, R. Azərbaycan 2003-2008: Zaman haqqında düşünərkən / R.Mehdiyev. – Bakı: "Şərq-Qərb", – 2009. – 240 s., s.46.

*etsə, yekdil və yekcəhət olsa, proqress məsləkinə düşər və sivilzasion dairəsinə qədəm basar".*

Dissertasiyanın elmi yeniliyi olaraq, həmçinin deyə bilərik ki, şəxsiyyət fenomeninin tarixi-sosial dinamiklik şəraitində sosial-psixoloji səbəblərini, problemin psixoloji strukturunu, tiplərini və funksional xarakterini müəyyənləşdirmişik.

M.F.Axundovun əsərlərinə həsr olunmuş tədqiqat işlərindən fərqli olaraq, bu tədqiqat işində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri və onların cəmiyyətdə baş verən hadisələr zamanı şəxsiyyətin dövlətin həyatında oynadığı rol araşdırılmışdır. Eləcə də şəxsiyyətin özünüqiymətləndirməsinin qeyri adekvatlığından, dəyərlər sisteminin pozulmasından emosional-iradi sferasının qeyri-yetkinliyindən, sosial məsuliyyətin aşağı olmasından asılılığı ayırd edilmişdir. Bununla yanaşı, tədqiqat işində şəxsiyyətin davranışının korreksiyası yolları müəyyən edilmiş, onlarda müşahidə olunan konfliktlərin pozitiv həlli yolları göstərilmişdir. Beləliklə, dissertasiya işi əsərlərə fərqli yanaşmada aşkarlanan problemlərə həsr edilmişdir. Şəxsiyyətin və cəmiyyətin sosial-psixoloji xüsusiyyətlərinin dövlətin həyatında oynadığı rol araşdırılmış və gələcək nəsillərə təsiri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Şəxsiyyət, bir fenomen kimi, psixologiyanın əsas kateqoriyalarından biri olduğu üçün, bu sahədə aparılan hər hansı bir tədqiqat əsəri, şəxsiyyət psixologiyasına dair töhfələr verir, şəxsiyyət psixologiyasının nəzəri məsələlərini zənginləşdirir. M.F.Axundovun psixoloji problemlərə dərindən bələd olduğunun, həmin problemləri əsərlərində yaradıcı surətdə inkişaf etdirdiyinin şahidi oluruq. Böyük mütəfəkkirin əsərlərində şəxsiyyətin sosial-psixoloji problemini aşkara çıxarmaq yolu ilə Azərbaycan psixoloji fikir tarixində yeni bir şanlı səhifə haqqında təsəvvür əldə etmək mümkün olacaq. Tədqiqat, eyni zamanda, Azərbaycan milli psixologiyasının gələcək inkişafı üçün bir mənbə missiyasını da yerinə yetirəcəkdir.

Dissertasiyada əldə edilmiş elmi nəticələrdən, irəli sürülmüş müddəalardan M.F.Axundovun yaradıcılığı ilə bağlı aparılan tədqiqatlarda da geniş istifadə oluna bilər. M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji, inteqrativ, funksiyalararası əlamətlərin

nəzəri psixoloji problemlərinin öyrənilməsi istiqamətində əldə edilmiş materiallardan, həmçinin şəxsiyyət psixologiyası mövzusunda keçirilən mühazirələrdə, kurslarda, seçmə fənlərdə, elmi-tədqiqat işlərinin aparılmasında geniş istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatla bağlı əldə edilmiş nəticələr Azərbaycan Dillər Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya kafedralarında, müxtəlif elmi konfranslarda müzakirə edilmiş, dissertasiyaya aid məqalələr müxtəlif yerli və xarici jurnallarda, elmi xəbərlərdə nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil (8 yarım fəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədan ibarətdir. Dissertasiyanın Giriş hissəsi 9 səhifə (18 557 simvol), I fəsil 61 səhifə (120 473 simvol), II fəsil 43 səhifə (84 558 simvol), III fəsil 42 səhifə (81 449 simvol), Nəticə hissəsi 10 səhifə (19 661 simvol) olmaqla, işarə ilə ümumi həcmi 325 167 simvoldur.

## İŞİN ƏSAS MƏZMUNU

***Girişdə*** mövzunun aktuallığı əsaslandirilir, problemin işlənilmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, nəzəri metodoloji əsasları, dissertasiyanın elmi yeniliyi, elmi-nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, strukturu açıqlanır.

Dissertasiyanın ***I fəsli "M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri"*** adlanır. Buraya dörd yarım fəsil daxildir *(1.1. M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinin tədqiqinin mahiyyəti və psixoloji ədəbiyyatda qoyuluşu; 1.2. M.F.Axundovun yaşadığı dövrün sosial-psixoloji səciyyəsi; 1.3. M.F.Axundovun maarıfçiliyində sosial-psixoloji istiqamətlər; 1.4.Tədqiqatın metodologiyası və metodikası).*

*Birinci yarımfəsildə* elmi işin müasir dövrlə nə dərəcədə səsləşdiyi, ahəngdar, zəruri olmasına aydınlıq gətirilir. Tədqiqatın nəticəsində məlum olmuşdur ki, bir dramaturq kimi bizə və ümu-

miyyətlə ondan sonrakı nəsillərə əsərlərini irs qoyan M.F.Axundov polkovnik olaraq, özünün siyasi karyerasında rast gəldiyi o dövr üçün gizli şəkildə planlaşdırılan Azərbaycan torpağına həmlələrdən xəbərdar idi. Rusların əhatəsindən yayınaraq, o siyasət işlədərək, qələmə əl ataraq, öz əsərlərində bizlərə bunları çatdırmaq istəyirdi. Onu bir vətənpərvər olaraq, torpağının başına gələn bəlalar narahat edirdi. Digər yazarlardan fərqi onda idi ki, o, bu faciələri sadəcə təcvir etmirdi, həm də onun səbəblərin sosial-psixologiyasını açıqlayırdı. Və bütün bunlar obrazlı şəkildə sətiraltı mənalarda öz əksini tapırdi. Bu baxımdan, M.F.Axundovun əsərləri ədəbi cəhətdən süjet xətti üzrə kifayət qədər tədqiq olunsa da, ideya etibarı ilə hələ də tamamlanmamış qalırdı. Tədqiqatlar göstərdi ki, bu əsərlər sadəcə bədii yaradıcılıq məhsulu kimi dəyərləndirilməməlidir. Onlar dərin fəlsəfi, psixoloji, siyasi məna yükü daşıyır. Onu da qeyd etmək lazımdır ki, əsərlərdə hər bir obraz, hər bir məkan, yəni elmi desək, hər bir toponim, zoononim, antroponim, kosmonim və s. çox dəqiqliklə seçilmişdir ki, dilçiliyin incə üslublarından yararlanaraq, bizlərə mahiyyət, psixoloji məna yükü işarələrlə ötürülmüşdür.

Əsərlər tarixi silsilə xarakterlidir və nəinki keçmiş tarixi faciələr və onu törədən sosial-psixoloji səbəblər, eyni zamanda, yuxarıda qeyd etdiyimiz kimi, bu səhvlərin qarşısı alınmasa, gələcəkdəki faciələrə rəvac verəcəyi də bizə yönləndirilir. Hətta düşmənin növbəti və əsas hədəfi olduğu Qarabağ və onun zəbt planı "Hacı Qara" əsərində vurğulandığı üçün bu əsərini M.F.Axundov özünün şah əsəri adlandırırdı. Adı çəkilən əsərdə Azərbaycan bütün dəyərləri ilə vəsf olunub. Avropa və Asiya qitəsinin kəsişdiyi bir məkanda yerləşən dövlətin siyasətində Qərb ilə Şərq mədəniyyətinin sintezinin qaçılmaz olduğunu və bunun, yəni bu günki anlayışla desək, qloballaşmaya qoşulmanın yolları açıqlanır və s. Ensiklopedik biliyə malik olan filosof M.F.Axundovun dahiliyi bununla izah olunur. Çox təəssüf ki, bu gün onun açıqgözlülüyü və uzaqgörənliyi öz təsdiqini tapdı. Bu baxımdan bizim səhvlərimiz gələcək nəsillərə ötüülməməsi üçün bu əsərlər nəinki sinif və auditoriyalarda təbliğ olunmalı, hətta vətəninin taleyinə və dərk etməliyik ki, canımızın parçası olan, onlara görə məsuliyyət daşıdığımız gələcək nəsillərin

taleyinə biganə olmayan hər bir vətəndaşımızın stolüstü kitabına çevrilməlidir.

Tədqiqat zamanı M.F.Axundov yaradıcılığının psixoloji ədəbiyyatda qoyuluşu da araşdırılmışdır ki, bu yalnız bir neçə psixoloqun M.F.Axundov haqqında kiçik məqalələri ilə tamamlanır.[5]

*Birinci fəslin "M.F.Axundovun yaşadığı dövrün sosial-siyasi səciyyəsi"* adlanan *ikinci yarımfəslində* XIX əsrin tarixi yenilikləri, bu yeniliklərin cəmiyyətə gətirdiyi müsbət və mənfi dəyişikliklər, onların əhaliniin yaşam tərzinə və psixikasına təsiri, şəxsiyyətin cəmiyyətə eləcə də cəmiyyətdəki dəyişikliklərin insan şəxsiyyətinə psixoloji təsir məsələsi problem kimi qoyulmuş və şərh edilmişdir.

*Birinci fəslin "M.F.Axundovun maarıfçiliyində sosial-psixoloji istiqamətlər"* adlanan *üçüncü yarımfəslində* kamillik zəminində şəxsiyyət amili məsələsi problem kimi qoyulmuş və şərh edilmişdir.

---

[5] Маковельский, А. О философском трактате М.Ф.Ахундова и об этапах развития его мировоззрения // Научные доклады высшей школы. Философские науки. – 1962. №5; Göyüşov, Z. Azərbaycan maarifçilərinin etik görüşləri: XIX əsrin II yarısı / Z.Göyüşov. – Bakı: Elm, – 1960. – 212 s.; Göyüşov, Z. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri / Z.Göyüşov. – Bakı: Azərnəşr, – 1964. – 191 s.; Göyüşov, Z. Azərbaycan maarifpərvərlərinin etik görüşlərində humanizm ideyaları // Azərbaycan SSR EA-nın Xəbərləri. – 1957, №8, – s.143-153.; Göyüşov, Z. XIX əsrin II yarısında yaşamış Azərbaycan maarifçilərinin etik görüşlərində müsbət əxlaqi keyfiyyət və sifətlər // Azərbaycan SSR EA-nın Xəbərləri. – 1957. №12, – s.189-202; Məhərrəmov, M. M.F.Axundovun psixologiyaya dair fikirləri haqqında / Məmmədəli Məhərrəmov // Azərbaycan məktəbi. – 1962. №10, – s.25-32; Məhərrəmov, M. M.F.Axundov və psixologiya elmi: M.F.Axundovun anadan olmasının 150 illiyi qarşısında // Ədəbiyyat və incəsənət. – 1962, 6 oktyabr. №39, s.3; Vəliyev M.V. M.F.Axundovun dünyagörüşünün psixoloji səciyyəsi/ «XXI əsr: mülahizələr, düşüncələr» mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2005. Səh. 88-90; Vəliyev M.V. M.F.Axundov yaradıcılığında insan xarakteri və onun səciyyəsi// «Bakı Universiteti xəbərləri», «Sosial-siyasi elmlər» seriyası. №3. Bakı, 2007. Səh. 93-101; Vəliyev M.V. M.F.Axundov irsində idarəetmə məsələləri// "Psixologiya jurnalı" №1, B., 2007. Səh 251-260; Байрамов, А.С. Психологические этюды / А.С.Байрамов. – Баку: Азербайджанское государственное издательство, – 1989. – 220 с.; Байрамов, А. С верой в человечество: [изучение С.Вургуном творчества М.Ф.Ахундова] // Вышка, – 1988. 5 января, – с.4., Байрамов, А. Психологический аспект в творчестве революционного демократа М.Ф.Ахундова // А.Байрамов, Ф.Ибрагимбеков. Вопросы психологии. – 1973. – с.117-122.

Şəxsiyyətlər ictimai quruluşun adekvat inikasıdır. Rəhbər dəyişməklə, ümumrifaha nail olmaq qeyri-mümkündür. Xalqın azad və xoşbəxt yaşaması üçün onunla liderlərinin, rəhbərinin arasında birliyin olması mütləqdir. Buna nail olmağın yeganə yolu isə, təbəqələrin özünüdərketməsi, özünənəzarəti, özünə dəyər verməsidir, başqa sözlə maariflənməsidir ki, onların sosial-psixologiyasının bu işdə təsiri olduqca əhəmiyyətlidir. Bu ideya M.F.Axundovun bütün əsərlərində qırmızı xıtlə keçir.

*Birinci fəslin "Tədqiqatın metodologiyası və metodikası"* adlanan *dördüncü yarımfəslində* adından da göründüyü kimi tədqiqatın aparılmasına kömək olan istifadə olunmuş metodlar haqqında məlumat verilib. Belə metodlardan

*Empirik tədqiqat metodları:* müşahidəetmə; müqayisə; material modelləşdirmə;

*Nəzəri tədqiqat metodları:* abstraktlaşdırma; ideallaşdırma; formallaşdırma; müqayisəli təhlil metodu; induktiv və deduktiv metodlar; nəzəri (əqli) modelləşdirmə.

Tədqiqat zamanı M.F.Axundovun əsərlərinın təhlilinə geniş yer ayrılmış, eyni zamanda bizdən əvvəl bu əsərlərin təhlilini aparmış görkəmli şəxslərin əsərlərindən, həmçinin arxiv materiallarından, xüsusilə müəllifin şəxsi arxivindəki materiallardan istifadə olunaraq, mövzumuzla bağlı təhlillər aparılmışdır.

Dissertasiyanın mövzusu şəxsiyyət probleminə həsr edildiyindən, şəxsiyyətə dair bütün nəzəriyyələrə əsaslana bilərik. Lakin dissertasiyanın həcmini nəzərə alaraq, bunların bəzilərinə geniş yer verilmişdir: klassik, klinik, eksperimental, humanistik və s. Dissertasiyada Azərbaycan və yaxın və uzaq xarici ölkə psixoloqlarının da elmi nəzəri müddəalarına istinad edilmişdir: O.M.Andreyevanın, Z.Freydin, K.Yunqun, E.Frommun, R.Meyyin, Q.Olportun, akademik Ş.A.Amonaşvilinin, Amerikalı məşhur psixoloq və psixoterapevt Orison Suet Mardenin, Amerika psixoloqu Milton Rokiçin, Fransa psixoloqu Qustav Le Bonun, Azərbaycan psixoloqları M.C.Məhərrəmovun, S.İ.Seyidovun, Ə.T.Baxşəliyevin, Ə.S.Bayramovun, M.V.Vəliyevin, E.A.Piriyevanın və s.

Dissertasiyanın ***ikinci fəsli "M.F.Axundovun əsərlərində şəxsiyyətin idrak fəaliyyətinin sosial psixoloji xüsusiyyətləri***

***(aspektləri)"*** adlanır. Fəsil dörd yarımfəsillə əhatə olunmuşdur *(2.1. "Hekayəti Molla İbrahimxəlil kimyagər" əsərində şəxsiyyətin əqli düşüncəsinin sosial-psixoloji xüsusiyyətləri; 2.2. M.F.Axundovun qadın şəxsiyyətinə münasibətinin sosial-psixoloji təhlili; 2.3. M.F.Axundovun "Sərgüzəşti mərdi-xəsis (Hacı Qara)" komediyasının sosial-psixoloji təhlili; 2.4. M.F.Axundovun "Hekayəti-Xırs-Quldurbasan" komediyasında şəxsiyyətin hissi emosional və iradi keyfiyyətlərinin sosial-psixoloji xüsusiyyətləri).*

"Hekayəti-molla İbrahimxəlil kimyagər" − 1850-1851 (1267) Haci Nurunun dili ilə 1796-cı ildə baş vermiş Şəki xanlığının işğalı, tarix vurğulanır. Burada sosial psixoloji xüsusiyyətlərdən, rəhbər olaraq bəylərin xarakterdəki sərvət meyli, ziyalı qismində çıxış edən Hacı Nurunun isə bir transakt lider olaraq, yaxın keşmişdə ləzgilərin Nuxanı işğalını nəzmə çəksə də, onun yayılmasından yayınaraq, qrup təzyiqi altında irəli sürdüyü ideyası uğrunda mübarizədən çəkinir. Düşmən tərəfin isə psixologiyamıza bələb olduğu üçün ünsiyyət psosesində andlar vasitəsilə psixoloji təsir etməklə, şüurumuza hakim kəsilməsi xüsusilə önəmlidir. Tarixdən dərs almamaq, laqeyidlik millətin maddi və mənəvi sərvətləri yadellilər tərəfindən bir daha talanmasına, yeni faciələrə rəvac verir. Hər bir kəsin zəif nöqtəsi olduğu kimi, millətin də milli-etnik xüsusiyyətlərini bilməklə ona psixoloji təsir etmək mümkündür. Torpağına ayaq basan hər bir kəsi qonaqpərvərliyi ilə qarşılamaqda tanınan bir milləti mənfur niyyətlərlə tamah qurbanına çevrilməsinə səbəb tarix boyu düşmən psixologiyasını mənimsəməməyimizdir. Qanında düşmənçilik, kinlilik olmayan millətimizi faciələrə təkrar-təkrar sürükləyərək, sonra da sülh, qardaşlıq adı ilə qəzəbini boğmaq bizim temperamentimizə, xarakterimizə, qabiliyyətlərimizə, dünyagörüşümüzə, əqidəmizə və s. bir sözlə psixoloji xüsusiyyətlərimizə və ümumiyyətlə psixologiyamıza düşmənin bələdliliyindən xəbər verir. Nəticədə bir dövlət olaraq, torpağa və onun sərvətlərinə nəzarət itirilir, torpaqlar parça-parça itirilərək, idarəçilik yadellilərə keçir, millət isə, cənubda farsların, şimalda rusların əsarəti altında əzilir. *"Milli xarakterin mühüm hissəsi etnik temperamentdir. O, etnik xarakterin konkret situasiyaya*

*emosional-tipik reaksiyasının xüsusiyyətlərinin, ünsiyyətin, nitq tempinin dinamik təzahüründə əks olunur".*[6]

*2.2. "Hekayəti-müsyo Yordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünı-məşhur"* − 1850-1851 (1267) Azərbaycan hər bir halda Qərbdən üstündür. Milli özünüdərk. Qarabağda 1840-ci ildə ruslar tərəfindən bəylərin əlindən alınmış səlahiyyətləri və vətənpərvərliyə kölgə salan səbəblər açıqlanır. Torpağına sahibliyi əlindən alınmış Hatəmxan ağa hətta şəxsi evində kimin qonaq olacağını belə canişin təyin edir. Bu şərqlinin evində onun hər bir halda layiq olduğu üstünlük qərbliyə nümayiş etdirilir. Burada Qərb və Şərq mədəniyyəti müqayisəli şəkildə sosial-psixoloji aspektdə təsvir olunur. Əsərdə əsas ideyası – Mədəni həyat tərzində bütünlüklə Şərqdən bəhrələnən Qərbin Şərqə riyakar mövqeyi, Şərqin isə, bunu ürəkaçıqlığı ilə qəbul etməsi dərin psixoloji, siyasi məna daşıyır. Qərb zəngin torpaq olmadığı üçün onun əhalisi daha çox fəallıq göstərir, axtarışlara meyl edərək inkişaf edir, lakin bu inkişaf digər dövlətlərə terrorçu damğası vuraraq, qeyri-mədəni şəkildə, parazit kimi, bəhrələnmə sayəsində baş verir. Şərq isə, bolluq mənbəyi olduğu üçün əhalisi az hərəkətlidir. Lakin hər bir halda, Şərq, hətta özündən daha çox qarşı tərəfə dəyər versə də, təkcə maddi cəhətdən deyil, mənəvi cəhətdən də zəngin olaraq, Qərbi daim heyran qoyur, təəccübləndirir.

*2.3. "Sərgüzəşti-mərdi-xəsis (Hacı Qara)* − 1853 (1269) Heydər bəyin monoloqunda tarix vurğulanır.[7] Burada keçmişdəki tarixi səhvlərin nəticəsində gələcəkdə ermənilərin əli ilə, rusların Qarabağı işğal planının həyəcanı əks olunmuşdur. Bu gün polkovnik M.F.Axundovun o zamankı siyasi uzaqgörənliyi, təəssüf ki, özünü təsdiqlədi. Buna səbəb onun çar üsuli idarəsinin xüsusi şöbəsində tərcüməçi kimi işləyərkən əldə etdiyi məxfi məlumatlar idi. Qarabağ, M.F.Axundovun əsərindəki hadisələrə tam uyğun şəkildə çarın strateji planı əsasında işğal olundu.

*2.4. "Hekayəti-xırsi-quldurbasan"* − 1852 (1268) "Basdı quldur xırsı əhvalatı". Xırs – indiki Çanaqqala, Siyəzəndə - Şabranda

---

[6] Piriyeva E.A., İ.M.Məmmədli. Siyasi Psixologiya / psix.e.d., prof. K.R.Əliyevanın elmi redaktorluğu ilə. – Bakı: Ecoprint, - 2016. – 236 s. səh. 84

[7] İsmayıl, M. Azərbaycan tarixi / M.İsmayıl. – Bakı: "Azərbaycan eksiklopediyası" nəşriyyat poliqrafiya birliyi. – 1997. – s.228.

yerləşir. Dərbənd keçidində IV-VI əsrlərdə Albaniyalılara maneə üçün tikilib. III əsrdə Sasanilərin Azərbaycanın cənub torpaqlarını – Atropatenanı, və onun əhəmiyyətli şəhəri – Təbrizi zəbt olunaraq, Tavreş adı alır. Əsərdə sujet xətti, hətta Frans Foxt (yəni tülkü-quyruğu) obrazı tamamilə İran və Roma imperiyası arasında gedən yalançı müharibəni əhatə edir.[8] Əsərin sonunda Divanbəyi deyir: *"Ey camaat, sizdən ötrü indi ibrət olsun! Dəxi vəqtdir inanasınız ki, siz vəhşi tayfa deyilsiniz! Sizə eybdir yaman işlərə qoşulmaq. Bəsdir oğurluğa, tülkülüyə həris olmaq! Heç bilirsinizmi ki, rus dövləti sizə nə qədər yaxşılıqlar edir və sizi nə bəlalardan saxlayır? Lazımdır ki, böyüyünüzü tanıyıb həmişə əmrinə itaət edəsiniz".* N.Məmmədovun tərtibatında 1982-ci ildə oxucuların ixtiyarına verilən "Mirzə Fətəli Axundov... Komediyalar... povest... şeirlər" kitabındakındakı bu hissə nədənsə 2005-ci ildə çap olunmuş "Mirzə Fətəli Axundzadə... əsərləri" kitabında Divanbəyinin yuxarıda qeyd olunmuş sözləri axıra kimi verilməyib.[9] Zənnimizcə, müəllif əsərinə toxunmaq yolverilməz səhvdir. Ola bilsin, Nadir Məmmədov da düşünüb ki, M.F.Axundov ruspərəst olub və hesab edib ki, müstəqillik əldə etdiyimiz dövrdə bu yaxşı qarşılanmaz. Bu da dahi M.F.Axundovun şəxsiyyətinin və əsərlərinin səthi təhlil edildiyinə misal ola bilər. Beynimizdə bir növ stereotipə çevrilmiş sovet ideologiyasını dağıtmaq üçün əsərləri sosial-psixoloji cəhətdən təhlilini aparmaq zəruridir. Bu həm də onu göstərir ki, M.F.Axundov tövsiyə etdiyi kimi, ictimai-iqtisadi formasiya dəyişsə də, bizə xoşbəxtlik gətirməyəcək. Bunun üçün beynimizdə şüurumuza yenilik, inkişaf gərəkdir.

Dissertasiyanın ***üçüncü fəsli "M.F.Axundovun əsərlərində rəhbər və lider şəxsiyyətinin sosial-psixoloji təhlili"*** adlanır. Fəsil dörd yarımfəsillə əhatə olunmuşdur *(3.1. "M.F.Axundovun "Sərgüzəşti-vəziri xani-Lənkəran" əsərində şəxsiyyətin əqli düşüncəsinin sosial-psixoloji xüsusiyyətləri; 3.2. "Mürafiə vəkillərinin hekayəti" əsərində dövlət-məmur, məmur-cəmiyyət münasibətləri; 3.3. "Aldanmış kəvakib (Hekayəti-Yusif şah)" əsərində lider-rəhbər,*

---

[8] İsmayıl, M. Azərbaycan tarixi / M.İsmayıl. – Bakı: "Azərbaycan eksiklopediyası" nəşriyyat poliqrafiya birliyi. – 1997. – s.48.
[9] Yenə orada, s.96.

*rəhbər-məmur münasibətləri; 3.4.M.F.Axundov irsinə tələbə-gənclərin münasibəti).*

*3.1. "Sərgüzəşti-vəziri-xani-Lənkəran"* − 1850-1851 (1267) Lənkəranın işğalı. Hadisələrin 50 il əvvəl Lənkəranda cərəyan etdiyi əsərdə vurğulanır. Burada Lənkəranın işğallından danışılır. Bu dövr həmçinin onunla əhəmiyyətlidir ki, o dövrdə Azərbaycana İrandan, Türkiyədən və Rusiyadan gətirilən 18 min erməni ailəsi köçürülmüşdür. Əsər tamamilə o dövrün tarixi faktlarını əks elətdirir. 1804-1813, 1826-1828 Rusiya – İran müharibələri.[10] Əsərdə əsas ideya kimi, rəhbərlərin və ya ictimai-iqtisadi formasiyaların bir-birini əvəzləməsi milli dirçəlişə xeyir vemir, xoşbətlik gətirmir. Bunun üçün beyinlərdə inqilab gərəkdir, kamilləşmə mütləqdir.

*3.2. "Mürafiə vəkillərinin hekayəti"* − 1855 (1272). "Mürafiə vəkillərinin hekayəti" adlı əsərdəki hadisələrin Təbriz şəhərində cərəyan etməsi və əsərin ikinci adının "Şəhri Təbrizdə" olması, zənnimizcə, diqqətimizi İranın işğalına məruz qalmış, Təbrizdə farsların idarəetmədə özbaşınaqlıqları, yalancı dindarların fırıldaqları, əhalinin isə buna qarşı mərdliklə mübarizəsi yönəltmək məqsədi daşıyır. Murov, Azərbaycan dağlarında yüksək bir zirvə adıdır. Yəni, Azərbaycanda hakim mövqe tutan vəkillərinin əhvəlatı. Bu əsərdə ölmüş igidlərimizin bacısının və mülkünün – namusunun və torpağının İran tərəfindən hücuma məruz qalması təsvir olunur. Sonda namusumuz özümüzdə qalır, torpağımızı isə itiririk. Səfəvi dövləti Təbriz, Çuxursəəd – Naxçıxan, Qarabağ, Şirvan bəylərbəyliklərinə bölünüb. 1615-1616 illər bəylərbəyliklər birləşib, İrana qarşı azadlıq hərakatına qoşulurlar. M.F.Axundov tarixə müraciət edir.[11]

*3.3. "Aldanmış kəvakib"* 1857. Bu əsər artıq komediya deyil, povestdir. Hər kəsə özümüz kimi inanmağımız, ifrat qonaqpərvərliyimiz, düşmənin psixologiyasının maska effektinə laqeyd qalmağımız, ona gülərək, üstündən keçməklə, düzgün yanaşmamağımız, özümüzə dəyər verməyərək, çəkişmələrimiz faciə ilə nəticələnir. Onların kökündə isə, qanımızda düşmənçiliyin olmaması, kin tutmadan tarixi unutqanlığımız, xöş hadisələrə

---

[10] İsmayıl, M. Azərbaycan tarixi / M.İsmayıl. – Bakı: "Azərbaycan eksiklopediyası" nəşriyyat poliqrafiya birliyi. – 1997. – s.213-220
[11] Yenə orada, s.137.

özümüzü kökləməyimiz, nəinki maddi, yaradıcılıqla dolu mənəvi dünya xəzinəmiz kimi sosial-psixoloji xüsusiyyətlərimiz dayanır.

Humanist psixologiya məktəbinə mənsub olan Amerika psixoloqu Karl Rocersin fikrincə, şəxsiyyətin strukturunun fundamental komponenti kimi "mən konsepsiyası"nı qəbul etmişdir. Onun nəzəriyyəsi özünüaktuallaşdırma adı ilə məşhurdur. Onun fikrincə mən konsepsiya subyektdə ətraf mühit (birinci növbədə sosial mühit) arasındakı qarşılıqlı təsir prosesində formalaşır və onun davranışının özünütənziminin inteqral mexanizmini təşkil edir. Eyni fikirləri E.A.Piriyeva da vurğulayır: *"Bundan başqa xarakter əlamətlərini yalnız xalqın sosial iqtisadi və coğrafi şəraitindən, həyat tərzindən asılı olan ümumi dəyərlər sistemi ilə qarşılıqlı əlaqədə başa düşmək mümkündür... milli xarakterin daha çox işlənmiş sosial-tarixi interpritasiyası "Mədəniyyət və şəxsiyyət" konsepsiyasının da məzmununu təşkil edir. Məsələn, Kardinerin "təməl şəxsiyyət" ideyası müxtəlif mədəni mühitlərin təsirilə yaranan köklü şəxsiyyət fərqləri haqqında təsəvvürlərə əsaslanır".*[12]

Yəni "Şərq ulduzu aldanır". Səfəvi hakimiyyətinə süqutu təsvir olunmuşdur. M.F.Axundzadənin bu povesti yazmağı məqsədi, XIX əsrdə Azərbaycanda hökm sürən ictimai-siyasi, sosial-psixoloji vəziyyəti obrazlı şəkildə təsvir etməkdir. Əsəri oxuyarkən hansı aldadılmaqdan söz getdiyi müəmma qalır. Lakin obrazlara əsaslanıb, tarixə istiqamətlənəndə hər şey aydınlaşır. Söhbət Şah İsmayılın ölümündən sonra, onun varisinin – Təhmasibin kiçik olmasından istifadə edən, tayfa əmirləri hakimiyyət uğrunda mübarizəyə qalxdılar. Qısaca desək, nəticədə, zəifləmiş Azərbaycanın Osmanlı Türkiyəsi tərəfindən hücumlarından qorunmaq üçün Şah Abbasa tabe olurlar və bundan istifadə edən Şah Abbas adı ilə tanınan Abbas Mirzə Səfəvilər soyunu kəsir. "Kəvakib, yəni Şərq ulduzu allanır".[13]

*3.4. M.F.Axundov irsinə tələbə-gənclərin münasibəti.* Burada ADPU və ADU tələbələrinnin bir qisminə paylanmış M.F.Axundovun həyat və yaradıcılığı haqqında sorğu vərəqəsinə onların yazılı cavablarının nəticəsi açıqlanır. Alınmış cavabların nəticəsi onu qeyd

---

[12] Piriyeva E.A., İ.M.Məmmədli. Siyasi Psixologiya / psix.e.d., prof. K.R.Əliyeva-nın elmi redaktorluğu ilə. – Bakı: Ecoprint, – 2016. – səh. 82.

[13] Yenə orada, s.158-171.

etməyə əsas verir ki, XXI əsrin tələbə-gənclərindən sorğumuzda iştirak edən 333 tələbə, bütünlüklə, M.F.Axundov yaradıcılığı ilə yaxından məlumatlı olmaları sevindirici haldır. Maraqlı nəticə əldə edildi: təxminən 50 faizinin düşüncələri yeniliyə meyylidir, lakin qalan 50 faizində dinamik stereotiplər hələ də qalmaqdadır. Müəyyənedici eksperimentdən sonrakı, öyrədici (maarifləndirici) eksreriment isə, onu göstərdi ki, əksəriyyət tələbələr zehin açıqlığı ilə yeni fikirləri qəbul edirlər: M.F.Axundov yaradıcılığı yenidən tədqiq olunmalıdır, yadelli ideologiyadan uzaq, azərbaycançılıq məfkurəsi ilə yeni baxışa ehtiyac duyulur.

Beləliklə, XVIII əsrdə müstəqilliyini itirmiş Azərbaycandakı istiqlal hərəkatı xanlıqların yaranmasına səbəb oldu. Azərbaycanın cənub ərazisində yaranan xanlıqlar: Ərdəbil xanlığı, Marağa xanlığı, Maku xanlığı, Qaradağ xanlığı, Sərab xanlığı, Təbriz xanlığı, Urmiya xanlığı, Xalxal xanlığı, Xoy xanlığı, Zəncan xanlığı; şimal ərazisindəki xanlıqlar: Bakı xanlığı, Dərbənd xanlığı, Gəncə xanlığı, İrəvan xanlığı, Talış xanlığı, Naxçıvan xanlığı, Qarabağ xanlığı, Quba xanlığı, Şamaxı xanlığı, Şəki, xanlığı, Şirvan xanlığı.

İşğal olunmuş xanlıqların ərazisində özünün hakimiyyətini bərkitməyə çalışan Rusiya İmperiyası, ərazilərə 1828-ci ildən1830-cu ilədək təxminən 130 min İrandan və Osmanlı Türkiyəsindən köçən xristian ermənilərі (bunlardan 50 mini Qarabağ xanlığının ərazisində) yerləşdirməyə başlamışdır. Bunu polkovnik M.F.Axundov əsərlərində obrazlı şəkildə təsvir edir: Hekayəti molla İbrahim Xəlil Kimyagər (1850) - Şəki xanlığının işğalı, Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur (1850) - Qarabağ xanlığının işğalı, Sərgüzəşti-vəziri-xani-Lənkəran (1850) - Lənkəran və Sərab xanlıqlarının işğalı, Hekayəti Xırsi-Quldurbasan (1851) - Dərbənd xanlığının işğalı, Sərgüzəşti Mərdi-Xəsis (Hacı Qara) (1852) - Qarabağın gələcəkdə bütünlüklə qarabağlılardan təmizlənməsi planı bizə çatdırılır. Mürafiə vəkillərinin hekayəti (1855) - Təbriz xanlığının işğalı. Aldanmış Kəvakib (Hekayəti-Yusif şah) (1857) - xanlıqların arasında milli birliyin olmaması və hakimiyyətə meyllənərək, öz hakimləri ilə deyil, yadellilərlə ittifaqı, onun aldanılaraq tamamilə süqutuna səbəb olması obrazlı təsvir olunur.

Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr olunmuş aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:


1. M.F.Axundovun əsərlərində rəhbər və liderin sosial-psixoloji xüsusiyyətləri // – Bakı: Azərbaycan Memarlıq və İnşaat Universiteti. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları. – 2012. 18-19 noyabr. – II cild. – səh.155-157.
2. M.F.Axundovun əsərlərində Azərbaycan dilinin sosial-psixoloji xüsusiyyətləri // – Bakı: Azərbaycan Dillər Universiteti. Beynəlxalq elmi konfrnas: Tətbiqi dilçiliyin müasir problemləri. – 2012. 27-28 noyabr. – səh.252-254.
3. M.F.Axundovun "Hacı Qara" komediyasında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri // – Bakı: ADU, Elmi Xəbərlər, – 2012. №2, – səh.381-393.
4. M.F.Axundovun yaşadığı dövrün sosial-psixoloji səciyyəsi // – Bakı: ADPU, Pedaqoji Universitet Xəbərləri, – 2012. №3, – səh.328-335.
5. M.F.Axundovun əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları. – Bakı: Azərbaycan Dillər Universiteti. – 2013. 19-20 dekabr. – II cild. – səh.346-349.
6. M.F.Axundovun əsərlərində qadın şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətləri haqqında // – Bakı: BDU, – 2013. №3, – səh.100-111.
7. M.F.Axundov maarifçiliyinin sosial-psixoloji istiqamətləri // Beynəlxalq elmi konfrans. – Bakı: ARTPİ. Naxçıvan Dövlət Universiteti. – 2014. 16-17 dekabr. – səh.214-216.
8. Социально-психологические идеи в просветительстве М.Ф.Ахундова // ВЕКТОР НАУКИ Тольятинского Государственного Университета. – 2014. №2(17), – стр.19-21.
9. M.F.Axundovun "Mürafiə vəkilləri" əsərində idarəetmənin bəzi sosial-psixoloji məsələləri // – Bakı: ARTPİ, – 2014. №3, – səh.164-168.
10. "Aldanmış kəvakib (Hekayəti-Yusif şah)" əsərində lider-rəhbər, rəhbər-məmur münasibətləri // – Bakı: ADPU, Pedaqoji Universitet Xəbərləri, – 2015. №2, – səh.364-367.

11. M.F.Axundovun “Hekayəti - Molla İbrahimxəlil kimyagər” komediyasında şəxsiyyətin əqli keyfiyyətlərinin sosial-psixoloji keyfiyyətləri // – Bakı: ARTPİ, – 2016. – səh.300-304.
12. M.F.Axundovun “Sərgüzəşti-vəziri xani-Lənkəran” əsərində dövlət-ailə, dövlət-cəmiyyət münasibətləri // ADU, ELMİ XƏBƏRLƏR, – Bakı: – 2017. №4, – səh. 95-98
13. M.F.Axundovun əsərlərində şəxsiyyətin “Mən” konsepsiyası // ADU, Elmi xəbərlər, – Bakı, – 2020. №2, – səh.109-116.
14. Социально-психологические особенности познавательной деятельности личности в философских трудах М.Ф.Ахундова («Ответ английскому философу Юму») // - ИЗВЕСТИЯ БАЛТИЙСКОЙ ГОСУДАРСТВЕННОЙ АКАДЕМИИ рыбопромыслового флотаю – Калининград. – 2021. № 3(57). – стр.84-90.

Dissertasiyanın müdafiəsi 14 yanvar 2022-ci il tarixində saat $12^{00}$-da Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Əsas bina, kitabxana

Dissertasiya ilə Bakı Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi saytında yerləşdirilmişdir.

Avtoreferat 10 dekabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.12.2021.

Kağızın formatı: 60x84 1/16

Həcm: 36551 işarə

Tiraj: 100 nüsxə